NILUFƏR OSULI ODOLO
*BDU, Sosiologiya kafedrasının aspirantı*
*Pəyamnur Universiteti*

# FEMINIST BAXIŞLARDA AILƏ VƏ AILƏ HƏYATI INSTITUTU

Sosiologiyada ailə cəmiyyətin əsas özəklərindən hesab olunur. Hakim olan fikrə görə ailə cəmiyyətin mövcudluq qarantıdır. Ailə sosiallaşmanın əsas amili kimi hər bir cəmiyyətin möhkəmliyinə, onun inteqrasiyasına yardım edən ictimai nəzarəti uşaqların, yeniyetmələrin beyninə yeridir. Digər tərəfdən ailə xarici ictimai nəzarət və habelə böyüklərin reaksiyasından təsirlənmək baxımından təyinedici rola malikdir. Çünki əgər ailə olmasaydı bu reaksiyalar ümumi həyata yol tapa bilməzdi(3,467). Buna görə də ailə həm bir inistitut kimi və həm də daha böyük cəmiyyət üçün ailə münasibətləri kimi praktik yönə malikdir və həmin formada da inkişaf etməsi mümkündür.

Feminist baxışlar, istiqamət və cərəyanlar qadın məsələləri və onların problemlərinin kökləri barəsində müxtəlif fikirlərə sahib olduğu kimi ailə məsələləri barəsində də müxtəlif feminist fikirlərə rast gəlinir. İlk baxışda ailə nadir hallarda bir inistitut kimi feministlər tərəfindən sual altına alınırdı, amma ikinci mərhələdə bir çox feministlər ailəni kəskin tənqid edir və bunu qadınların alçaldılma vasitəsi hesab edirdilər. Onların əsas dəlilləri bundan ibarət idi ki, qadınların alçaldılmasında əsas səbəb onların ana və həyat yoldaşları rolunu oynamaları və bunu gələcək nəsillərə ötürərək onların da kişilər qarşısında alçalmalarına nail olmaqdır(6,132).

Feminist baxışlarda ailə zülmkar bir qurum olduğu üçün onu mümkün qədər tez dəyişmək lazımdır. Ailə quruluşunun dəyişilməsi, qadınları ümumi iş yerlərinə cəlb edilməsi və ailə mühitində ana rolunun zəiflədilməsi feminist proqramların başlıca vəzifələridir. Simon de Beauvoirin fikrincə qadının qul olmasının iki əsas səbəbi ana olmaq və evlənməkdir. O, ailə sisteminin ictimai həyatın əsası olması və sağlam insanların böyüdülməsi üçün bir vasitə olması fikirlərini kəskin tənqid edir və evlənməyi “ümumi fahişəlik” adlandırırdı. Simon ailə həyatı qurmağı qadınların bədbəxtlik amili kimi qiymətləndirirdi(17,17).

Liberal feminist Jessie Bernard ailə həyatı qurmağı “mədəni ailə həyatı qurmaq” və “zati evlənmələr” olaraq iki yerə bölərək ikinci növ ailə həyatı qurmağı kişilərin xeyrinə və qadınların isə zərərinə tamamlandığını irəli sürür və qadınların onlardan azad olması təklifini irəli sürürdü.

O, subay/evli kişi və subay/evli qadınları qarşılaşdırır və aralarında ziddiyyət əlamətlərini təqdm etməklə nəticə alırdı: evlənmək kişilər üçün yaxşı və qadınlar üçün isə pisdir. Hər iki cins üzərində evlənməyin bərabərzis təsiri o zaman aradan qalxacaq ki, kişi və qadın ənənəvi hal almış məhdudiyyətlərdən yaxalarını xilas edib, onların tələbatlarına və şəxsiyyətlərinə uyğun olan bir evlənmə üslubu yarada bilsinlər(3,475-476).

Marksist feministlər ailəyə qiymət verərəkən onu cinsi baxımdan iş bölgüsü kimi nəzərdən keçirirlər. Kristia Delgiyə görə ailə həyatı qurmaq iş müqaviləsinə bənzəyir ki, həmin müqavilədə kişi qadının əməyinin muzdunu vermədən onun sahibi olur. Bu iş isə kişi despotizminin möhkəmlənməsinə xidmət edir(11,262). Mişel Baretə görə qadınların zülmə məruz qalmasının rəmzi isə ailə sistemidir. Ailə müəyyən bir ideologiya və sosial quruluş əsasında yaradılan bir cəmiyyətdir(14,250). Sosialist fikirli feministlərə görə isə qadınlar nəinki siyasət və iqtisadiyyat sahəsində həmçinin kişilərin onlarla qul kimi davrandığı ailədə də zülmə məruz qalırlar. Onlara görə ailə ocağı kişi və qadınların mənəvi, mədəni və psixoloji təkamülünü geriyə atır və habelə ailə onların eqoizminə gəti-

rib çıxarır(16,361). Bu məktəbin ardıcıllarına görə ümumiyyətlə ailə ocağı burjua fenomenidir və qadınların nicatı üçün ailə quruluşunu aradan qaldırmaq lazımdır.

Radikal feministlər də ailə ocağına yaxşı münasibət göstərməmişlər. Onlara görə ailə həyatı qurmaq qadınların iqtisadi, maliyyə, hüquqi, siyasi və emosional baxımıdan özünü məhdudlaşdırmasıdır. Ailə mədənyyət maskası geymiş bir özəydir ki, kişilər onun vasitəsi ilə öz rollarını müəyyən etmək istəyirlər. Çünki ailəni öz mülkləri hesab edirlər. Ailə qadınların dəyərini azaldan səbəb- nəticələrdir(5,283).

Ailə və ailə həyatı qurmağa hər hansı bir formada etiraz edən ikinci feminist cərəyanlar dalğasının qarşısında "postmodernizm" cərəyanı durmuşdur. Onlar kişi cinsinin qadın cinsinə qalib gəlməsinin əsasını nə ailə həyatı qurmaq fenomenində və yaxud hər iki cinsin birlikdə ailə həyatı qurmaqlarında deyil qız və oğlan uşağının uşaq yaşlarından bir-birilə qarşılıqlı münasibətlərindən qaynaqlandığını bildirirlər(13,74). Onların fikrinə görə son dövrdə aparılan araşdırmalar göstərir ki, ailə həyatı qurmaq kişi və qadın üçün ictimai, iqtisadi, cinsi, zehni və cismi sağlamlığı artıra bilər. Halbuki ailə həyatı qurmadan və yaxud ailə həyatı qanunlarından kənar yaşayan qadınlar belə mənafeyə malik deyillər(4,378).

**Ailə funksiyaları**

Uzun əsrlər boyu, xüsusilə də son bir neçə əsr ərzində ailə müxtəlif formalara düşsədə və müxtəlif mədəniyyətlərdə fərqli forma qəbul etsə də ancaq bir məsələ aydındir ki, ailə öz müxtəlif formalarında həmişə müxtəlif funksiyalar yerinə yetirmişdir. Uilyam Oqburn və Klark Tibbitis 1934 cü ildə ailənin altı əsas funksiyalarını göstərmişdir ki onlar aşağıdakılardan ibarətdir:
a)Cinsi davranışın tənzimlənməsi b)Nəsil artırma
c)Himayə və nəzarət d)Sosiallaşma
q)Məhəbbət və bərabərlik v)İctimai mövqe qazanmaq(15,324).

Şübhəsiz ki, ailənin cəmiyyət və insanlara göstərdiyi təsir bu bir neçə şeylə məhdudlaşmır, təhsil, dini tərbiyə, qanuni atanın olması, ictimai nəzarət, iqtisadi tələbatların təmin edilməsi, maddi məhsulların ötürülməsi, asudə vaxtların təşkili, şəxsiyyətin özünütəsdiqi və inkişafı və s. göstərmək olar.

Ailə funksiyalarının çoxu feminist baxışların diqqəti nəticəsində qərarlaşır. Feministlərin bu funksiyalara diqqət ayırması adətən mənfi mühakimə formalarında inkişaf tapmışdır. Bu heç də o demək deyil ki, onlar xarici reallığı ailə təsiri kimi qəbul edirlər. Sadəcə dəyərlər baxımından onları qəbul etmir və yaxud onlarda dəyişiklilərin yaradılmasını istəyirlər.

Bu yazıda bütün ailə funksiyaları barəsində danışmaq mümkünsüz olduğu üçün ailənin beş əsas funksiyaları barəsində söhbət açmaq lazımdır:

**a) Cinsi davranışın tənzimlənməsi**

Bir çox psixoloq və sosioloq tərəfindən təkid edilən ailənin mühüm funksiyalarından biri də "cinsi davranışın tənzmilənməsidir". İnsan və heyvanlar arasında müştərək ehtiyac və tələbatlardan biri də nəslin davam etdirilməsidir. Cinsi tələbat üçün həyata keçirilən fəaliyyət bir sıra davranışların meydana çıxmasına səbəb olur ki, onları "cinsi davranış" hesab edirlər. Əlbətdə bunun mənası o demək deyil ki, cinsi davranış tamamilə cinsi amillərin təsiri altındadır. Çünki cinsi davranışın sosial təbiəti də onun kəmiyyət və keyfiyyətində mühüm rola malikdir. Bir sıra insanlar ümumiyyətlə cinsi davranışı inkar etmiş, tarixi- sosial istiqamətlərdə cinsi davranışın bərpa olunmasına həmcinsbazlıq fenomenin nümunələri kimi baxmışlar(15,324).

Müasir dövrdə xüsusi ilə də qərb cəmiyyətlərində ailə cinsi davranışın təmin edilməsi istiqamətində öz əsas funksiyasını itirsə də ancaq hələ də ailə üzvləri üçün cinsi davranışın tənzimlənməsi funksiyasını təmin edir.

**b) Nəsilartırma**

Ailənin mühüm funksiyalarından biri də cəmiyyətlərin və ümumiyyətlə bəşər nəslinin davam etməsi üçün lazım olan və ona təminat verən doğum məsələsidir. Şübhəsiz ki, nəslin davamı və yenilənməsi ailə həyatı qurmaqdan sonra başlayır və belə bir şəraitdə ailə həyatı qurmaq övlad sahibi olmaq üçün potensial vasitədir.

Bu funksiya digər ailə funksiyaları kimi feministlərin diqqət mərkəzində olmuşdur. Amma onların bu barədə baxışları fərqli və ziddiyyətlidir. Feministlər övlad sahibi olmaq və nəsil artırmaq üçün müxtəlif yolları təklif etmişlər ki, onlardan ikisi daha çox diqqəti çəkəndir. Biri hamilə qalmaq məsələsi və onun texnoloji cəhətdən yaranan imkanları, digəri isə qadının öz bədəninə nəzarət etməsi üçün abort etdirməsidir. Aşağıda bu iki məsələdən bəhs edilir.

Feministlərə görə analıq rolu və uşaq doğma məsələsi çox böyük mübahisələrə səbəb olan bir mövzudur. Bəzilərinə görə hamilə qalmaq qadınların çiyninə qoyulan bir yükdür və qadınları məğlub etdiyi üçün gərək onların yolundan bu maneəni götürmək lazımdır. Bu qrup feministlər adətən yeni texnologiyaları irəli sürərək bu sahədə qadınlara olan təzyiqləri azaldaraq və bu yolu onlar üçün azadlığın açarı kimi qeyd edirlər. Amma bunlara əks olaraq bir dəstə bu fikirdədirlər ki, uşaq doğmaq və övlad sahibi olmaq qadın olmaq ləzzətlərinin ən böyüküdür. Yalnız onu kişinin nəarətindən çıxarmaqla qadınların müsbət təcrübələlərindən birinə çevrimək lazımdır.

Shulamit Firestone birinci qrupa aid etmək olar. Onun fikrincə hamilə qalmaq vəzifəsi qadınların məğlubiyyət və əzilməsi deməkdir. Çünki onun nəzərinə görə övlad sahibi olmaq kişilərin qadınlara qələbə çalmasının əsasını təşkil edir. Qadınları bu məğlubiyyətdən, eyni zamanda bu məsuliyyətdən azad etmək üçün elmi texnologiyların nailiyyətlərindən istifadə etmək lazımdır(12,144).

**c) Himayə və nəzarət**

İnsanlar doğulduğu anlarından etibarən himayə və nəzarətə ehityacı da özü ilə ərməğan gətirirlər. Bir tərəfdən dünyaya gələn insan digər canlılardan fərqli olaraq bir müddət özünə nəzarət və özünü mühafizə edə bilmir. Digər tərəfdən isə həyatın müxtəlif anlarında insan elə situasiya ilə qarşılaşa bilər ki, bu zaman özünə nəzarət edə bilməyini əldən verə bilər. Habelə, insan ömrünün sonlarında zəiflədiyi üçün bu zaman da himayə və nəzarətə ehtiyacı vardır. İnsanın bu gücsüzlüyü onun himayə və nəzarətə olan ehtiyacının zəruriliyini ön plana çıxarır. Ailə qədim zamanlardan etibarən müxtəlif cəmiyyətlərdə körpə, xəstə və yaşlıların himayə edildiyi yer kimi nəzərə alınmışdır.

Parsonz və Merdok kimi sosioloqlar ailədə işlərin cinsiyyətə görə bölgüsünü insanların ağlının göstəricisi kimi ifadə etmiş və bunu ailənin möhkəm olma amili kimi qeyd etmişlər. Bu cür bölgü cəmiyyət və hər iki cinsin xeyrinədir və bu səbəbdən onlar bu cür bölgünü təbii və çıxış yolu kimi qeyd edirlər(2,110).

**d) Sosiallaşma**

Sosiallaşma ailənin mühüm əsaslarından biridir. Sosioloqlara görə sosiallaşma vasitəsi ilə cəmiyyətin sosial elementləri öyrənilir, fərdlər şəxsiyyətləşir və cəmiyyətin bir üzvü kimi hərəkət etməyə hazır edilir(1,74). Bu termin çox vaxt uşaqlar və yeniyetmələr barəsində işlədilsə də ancaq bu termin onlarla məhdudlaşmır. Bəlkə də ailə üzvlərinin hamısı öz həyatı boyunca sosiallaşma halındadırlar. Bütün mədəniyyətlərdə ailə uşağın uşaq dövrlərində sosiallaşmasının əsas amili hesab edilir. Sonrakı mərhələlərdə isə məktəb, həmyaşıdlar, ümumi vasitələr də sosaillaşmada öz təsirini göstərirlər.

Bu təsir də xüsusi bir bucaq altında feministlərin diqqət mərkəzində qərarlaşmışdır. Onların ciddi cəhdlə müzakirə etdikləri məsələ ailədə cinsiyyət rollarının sosiallaşmasıdır. Onlar qız və oğlanların sosiallaşmasının müxtəlif üslublarını tənqid edərək onu cəmiyyət və ailə səviyyəsində bərabərsizliklərin əsas səbəblərindən biri hesab etmiş-

lər. "Cinsiyyət rolları" elə rollara aid edlir ki, kişi və qadınlara bioloji cins əsasında həvalə edilirlər. Feministlərə görə cəmiyyət cinsiyyətə aid olan davranışı bioloji cinsin hər birilə qaydasız üslubda əlaqələndirilir. Onlar Dobovarın "insan qadın kimi doğulmur, bəlkə qadına çevrilir" fikrini dəstəkləyərək deyirlər ki, cinsi rollar əldə edilən xüsusiyyətlər, təyin edilmiş rollar və ideologiyanın bir hissəsi heab edilir və qadın rolları onların təbiətindən qaynaqlanır(10,92-93).

**h. Məhəbbət və birgəlik**

Bir çox sosioloqların fikrincə "məhəbbətə olan tələbatın ödənilməsi" ailə inistitutunun davam etməsinə təminat verən ən mühüm funksiyalardan biridir. Habelə mümkündür ki, müxtəlif mühitlərdə, məsələn iş, təlim və ya bir dostla birlikdə olduqda onun dostluq tələbatları qismən ödənilsin. Amma insanların çoxu öz şəxsi münasibətlərinin ən xoşa gələnini öz həyat yoldaşı, valideyn, övlad və digər qohumları ilə birlikdə yaşayır. İnsanlar adətən öz ruhu və cismi rahatçılığını ailədə axtarırlar. Ailə onlar üçün rahat bir ocaqdır ki, onları kəşməkeşlərdən və xarici dünyanın üzücü gərginliklərindən xilas edərək onlara ruhu rahatlıq bəxş edir. Müasir sənaye cəmiyyətlərində bu təsirin əhəmiyyəti o həddədir ki, onu ailə həyatı qurmaqda ən önəmli amilə çevirmişdir. Müasir dövrdə emosional fərdiyyətçilik ailə həyatının tərkib hissəsi kimi təbii bir iş formasına gəlmişdir. Fikirmizcə müasir müəyyən bir mədəni xüsusiyyətə çevrilməklə insan varlığının təbii bir hissəsi olmalıdır.

Parsonze ailə funksiyaları arasından ikisini hamıdan daha önəmli sayır. Biri "sosiallaşma" təsiri və digəri isə kişilərin şəxsiyyətinin möhkəmlənməsində ailənin göstərdiyi təsirdir. Çünki onun nəzərinə görə sənayenin inkişafı prosesi ailədə parçalanmanın baş verməsinin aşkar olmasına səbəb olmuş və nəticədə ailənin bütün iqtisadi və digər funksiyaları ailə və müxtəlif inistitutlar arasında bölünmüşdür. Yerdə qalan yeganə ən mühüm funksiya uşaqların sosiallaşma amillərinin hazırlanması və rəhbərlər üçün psixoloji bərabərliyin əldə edilmə şəraitinin hazırlanmasıdır(9,88). Parsonezin nəzərinə görə rəhbərlərin şəxsiyyətinin təsbit edilməsi gündəlik həyatın psixoloji təzyiqləri ilə qarşılaşmada oynadığı rola işarə edir. Bu təzyiqlər potensial olaraq rəhbərlərin şəxsiyyətini süstləşdirir. Şəxsiyyətin təsbit edilməsi kişinin ailə həyatı qurması nəticəsində bir-birinə olan qarşılıqlı məhəbbətin dəstəyindən və habelə atalıq və analıq rolundan yaranır. Şəxsiyyətin təsbit edilmə prosesində valideynlər öz övladları ilə oynamaq yolu ilə uşaqlıq dövrünə qayıdırlar və beləliklə mövcud gərginliyi aradan qaldırır(8,401).

**İslam dini baxımından tənqid və araşdırma**

Ümumiyyətlə götürdükdə varlıq fenomenlərinə qarşı olan hər hansı bir baxış bir sıra fəlsəfi və fikri əsaslara söykənir ki, onlara əsaslanmaqla fenomenlərin ifadə olunması və analitikası ilə məşğul oluruq. Əgər fikir və düşncə dünyasında "feminizm" adlı bir cərəyan ilə rastlaşırıqsa onun köklərini qərbin sosial-fikir tarixində axtarmaq lazım gəlir. İntibah və renesasns dövründən sonra yaranan düşüncələr fminizmin meydana çıxması üçün münasib və əlverişli şərait yaratdı. Buna görə də feminizmi araşdırarakən qeyd etməliyik ki, bu düşüncə qərb dünyasında yaranmış və bu baxışlar isə qərbin qadına qarşı olan keçmiş və indki davranışından irəli gəlmişdir ki, bunu burmənalı olaraq digər cəmiyyətlərə tətbiq etmək düzgün deyil. Feminizmin əsaslarının heç biri İslam düşüncəsi tərəfindən qəbul edilmir. Bu əsaslar ilə əldə edilən təlimlər də heç bir vaxt İslam cəmiyyəti üçün məqbul hesab edilə bilməz. Buna görə də aşağıda feministlərin ailəyə qarşı olan münasibətini qısaca qeyd edərək onların çatışmayan cəhətlərini tənqid etməyə və bu mövzuda dinin söylədiyi fikirləri qeyd etməyə çalışmışıq:

1. İslam düşüncə tərzinə görə insan adlı məxluq Allahın yer üzərində canişinidir və insanın şəxsiyyəti dünyanın yaradıcısı ilə əlaqədə olarkən hər hansı bir məna kəsb edir və insanın səadətə çatması yaradılışının səbəbi olan Allaha yaxınlaşmaqdır. Buna görə

də Allaha bəndəçilik etmək İslam dini əsasında mümkündür. Bu dəyərlər sistemində yaradılış (insanın varlığı və təbiəti) ilə dini qanunlar (islam dininin insanın hidayəti üçün irəli sürdüyü proqramlar) arasında tənasüblük vardır. Bu sistemdə insanlıq məsələsində kişi ilə qadın bərabər olsalarda amma real aləmdə bir sıra səbəblərə görə onlar arasında bir sıra fərqlər müşahidə edilir. Amma bu fərqlərin özü qadın və kişi arasında münaqişələrin yaranması deyil, onların hər ikisinin təkmilləşməsinə yardım etməlidir. Bu o halda baş verir ki, feminist meyillər ailə və onun məsələləri barəsində fərqli düşüncə əsaslarına söykənsinlər.

2. Din ilə ziddiyyəti feminizmin ciddi tənqidlərindən biri kimi hesab etmək olar. Feminizmin əsas düşüncə əsaslarından biri də "sekularizm"- dir. Beləki onların nəzərinə görə yaşayış və ona aid olan şeyləri dindən ayrlmalı və din mülahizələri həmin sahələrdə nəzərə alınmamalıdırlar. Buna görə də ictimai və əxlaqi dəyərlər insanların ictimai rifah və məişətinə nəzərən müəyyən edilməlidir. Feminizm cərəyanı bu əsasdan yararlanaraq ailə sistemindən din və dini təlimləri ixtisara salmaq istəyirlər. Onlar ailə və sosial mühit səhnəsindən "Allah" və ali anlayışları ixtisar etməklə insanları maddi ləzzətlərdən faydalanmağa çağırırlar. Bir sıra alimlərin dediyinə görə "sekulrizm genişləndikdən sonra ailə və ailə həyatı qurmaq üçün çətinlik və məhdudiyyətlərə dözməyə yer qalmır". Feminizmin ən əsas məqsədləri qadınlar əleyhinə ola ayrı-seçkilikdən əl çəkmək, hüquq bərabərliyini əldə etmək, kişi ilə qadının bərabər olması, eyni cinslərin bir- birinə meyl etməsini və abortu rəsmiləşdirməkdən ibarətdir. Onların bir çox tələbləri İslamın və digər dinlərin əsasları ilə uyuşmur və yalnız ailə və cəmiyyətin dağılmasına yönəldilmişdir.

3. Bir çox feministlərin düşüncəsinə görə kişi və qadın fərqli cinslər olduğundan biri digərini təsir altına salmağa çalışır. Hətta bəzi radikal cərəyanlar kişi və qadını bir-birinin düşməni adlandırır və ailəni isə bu düşmənçiliyin səhnəsi adlandırır. Amma dini düşüncədə kişi və qadın bir-birini tamamlayan iki varlıqdır ki, hər biri ictimai, fərdi və ailə xoşbəxtliyi üçün cavabdehdirlər. Buna görə də ictimai islahatlar onlar arasında daha çox anlaşmanın yaranmasına gətirib çıxarmalıdır. Bu nəzəriyə görə onların xoşbəxtliyi bir-birindən asılıdır. Deməli ailə sahəsində onların bir-birinə kömək etməsi nəinki maneədir, əksinə onların xoşbəxtliyinə yardım edən bir amildir. Şübhəsiz ki, kişi və qadının mükəmməl olması elə onların bir-birinin hüquqlarına hörmət etməsi deməkdir. Əxlaq və hüquq normalarına riayət etməmək isə feministlərin də dediyi kimi zülm və ədavətə səbəb olacaqdır.

4. Bundan öncədə qeyd etdiyimiz kimi feministlərin bir nöqtədə birləşdikləri yer ailə və cəmiyyət sahəsində fürsətlər, imkanlar və hüquqda bərabərlik və birliyin olması fikridir. Qərb dünyagörüşünün əsaslarından biri maddi işlərin rifahıdır. Bütün feministlərin məqsədi elə bir cəmiyyətin yaradılmasıdır ki, həmin cəmiyyətdə cinsiyyətlər arasnda fərq qoyma öz yerini bərabərliyə verməlidir ki, maddi rifahdan istifadə olunması və bərabərlik şüarı yerinə yetirilsin. Onların fikirncə ideal cəmiyyətdə bütün fəlaiyyət sahələrində mövcud olan ayrı-seçkiliklər aradan qalxmalı, onların yerini bərabərlik tutmalıdır. Bütün ictimai fəaliyyət sahələrində qadın və kişi, onların cinsi, fikri qüvvələri, istedad, ruhiyyə və hisslərinin onların ictmai rollarının ifa edilməsində təsiri nəzərə alınmadan, bərabər şəkildə öz rollarını ifa etməlidirlər. Bu sahədə feminism qadınları ev mühitindən kənarlaşdıraraq onları ictimai həyata cəlb edə bildi. Qadınlar üçün zahirən elm və iş sahəsində bərabərlik yaratsa da ancaq onların əsas və zati rolları olan analıq və həyat yoldaşı olması vəzifəsini nəzərə almadı və nəticədə isti ailə ocağının əsası olan qadının və onun analıq vəzifəsinə olan hörməti əlindən alındı. Bu o zaman həyata keçirilir ki, dini şüur qadını kişidən fərqli bir varlıq olması qənaətindədir və buna görə də hər birinə özünə uyğun istedad və vəzifələr vermişdir. Ona görə də iki

cins arasında olan fərqləri nəzərə almamaq qadın şəxsiyyətinə və insan cəmiyyətinə zərbə vurur. Feminzmin bərabərlik çağırışının çatışmayan tərəfi bundan ibartdir ki, qadın və kişi arasında olan frəqləri nəzərə almadan qadınlığı inkar etməyə qalxmışdır. Çünki rəqabət meydanında özünü dəyişməli olan və kişilərə çatmalı olan qadındır. Buna görə də qadın kişi ilə bərabər olmaq səviyyəsinə qalxmaq üçün öz qadınlığını inkar etməlidir.

### *ƏDƏBIYYAT*

1.Bros Kuen, sosiologiyaya giriş, 1996.
2.Cin Fridmen, Feminizm, 2002.
3.Corc. Riterz, müasir dövrdə sosiologiya nəzəriyyəsi, 2001.
4.Ənəvi və müasir keşməkeşdə qadın hüququ, qadın hüquqlarının hermenvtikasının əsaslarında bir düşüncə, 2003.
5.Həmira Məşirzadə, Hərəkatdan sosila nəzəriyyəyə qədər: feminizmin iki əsrinin tarixi, 2006.
6.Həmira Məşirzadə, Qadın tədqiqatlarına giriş.
7. Hüseyn Bəstan, İslam və ailə sosiologiyası, 2006.
8.inist nəzəriyyələr lüğəti.
9. Martin Seqaleyn, ailənin tarixi sosiologiyası, 1991.
10.Megi Ham, fem Con Stuart Mil, qadınlara tabe olmaq.
11.Megi Ham, feminist nəzəriyyələr mədəniyyəti, 2003.
12.Məhəmməd Əli Məhəmmədi, "feminism və ailə", qadınlar kitabı.
13.Məhəmməd Həkimpur, Ən Stefani Gert, cinsiyyət sosiologiyası.
14.Pamla Abut, Valas Klor, feminist baxışların sosiologiyasına giriş, 1997.
15.Richard Schaefer, Sociology, 1989.
6.Rik Vilford, Feminizm, Yan Meknezi və digərləri, siyasi ideologiyalara giriş, 1996.
17.Taha mədəni müəssisəsi, feminizmə bir baxış, 1998.

**НИЛУФЕР ОСОЛИ ОДОЛИ**
***аспирантка кафедры социологии Бакинского Государственного Университета***

### ПРОБЛЕМА СЕМЬИ И СЕМЕЙНОЙ ЖИЗНИ В ФЕМИНИСТСКИХ ВЗГЛЯДАХ

В статье рассматривается влияние религиозных взглядов на формирование семьи и семейных отношений в обществе, в том числе в иранском. Феминизм как идейно-политическое течение, ставит другие приоритеты в систему ценностей семьи и семейной жизни. Автор подробно рассматривает указанные направления в своей статье.

**NILUFER OSOLI ODOLI**
***the post-graduate student of chair of sociology of the Baku State University***

### PROBLEM OF A FAMILY AND HOME LIFE IN FEMINISTIC SIGHTS

In article influence of religious sights on formation of a family and family relations in a society, including in the Iranian is considered. The feminism as an ideological and political current puts other priorities in system of values of a family and home life. The author in detail considers the specified directions in the article.

***Rəyçilər: fəl.e.d.K.Əzimov, fəl.e.d.N.M.Mikayılov.***
***BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Sosiologiya kafedrasının 15 mart 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №06).***